Bir məsələni də xüsusilə qeyd etməyi vacib hesab edirik ki, 2013-cü ildə artıq sözügedən keçiddəki mağazalar bizlərdən xəbərsiz "Royal İSTEYT" MMC-nin adına özəlləşdirilmişdi. Bununla da, Anar Məmmədov öz havadarları əmisi Elton Məmmədov və Elnur Abdullayev ilə birlikdə bizim inam və etibarımızdan sui-istifadə edərək aldatmaq yolu ilə bizdən özəlləşdirmək adı altında əvvəllər yəni 2009-cu ilin fevral ayında almış olduğu külli miqdarda pulu mənimsəmiş oldular.

Möhtərəm Prezidentimiz İlham Əliyev cənablarının böyük uğurla davam etdirdiyi, daxili iqtisadi siyasətinə kölgə salmağa cəhd edən şəxslərin başında sabiq Nəqliyyat naziri Ziya Məmmədovun özü, qardaşı Elton Məmmədov və oğlu Anar Məmmədov dayanır. İcraçıları isə 2014-cü ilə qədər Elnur Abadullayev 2014-cü ildən sonra Ziya Məmmədovun qohumu Novruzov Anar Tofiq oğlu və Ərəstun adlı şəxslərdirlər.

Novruzov Anar və Ərəstun həmin ticarət mərkəzində heç bir legitim vəzifəsi və səlahiyyəti olmayan bir şəxslərdir. Lakin buna baxmayaraq Anar Novruzov həmin ticarət mərkəzini istədikləri kimi idarə edir. Belə ki, min bir bahənə ilə hər kəsin müqaviləsinə xitam verib, yerini əlindən alıb, özününkü edir, yaxud yaxınlarının adına yazdırıb, 5000 min manatdan icarəyə verir.

Anar Novruzov nəinki qüvvədə olan qanunvericiliyin tələblərini, eləcə də mövcud real şəraiti və ondan irəli gələn vəziyyəti də nəzərə almayaraq, nəyin bahasına olursa-olsun pul yığmaqla, və koronavirus ilə əlqədar ölkədə elan edilmiş karantin rejimi dövründə ticarət mərkəzinin bağlı olmasına baxmayaraq, Anar Novruzov bizdən mart, aprel, may və iyun ayları üçün müxtəlif hədə-qorxu və təhdidlərlə pul tələb etmiş və almağa da nail olmuşdur. Bağlı olan ticarət mərkəzinin guya saxlanılması ilə əlaqədar icarə müqaviləsi şərtlərində nəzərdə tutulmamasına baxmayaraq, hər ay üçün pul alır və ödədiyimiz məbləğlər barədə bizə hər hansı bir qəbz verilməmişdir.

Digər tərəfdən pandemiya dövründə dövlətin bizə etdiyi yardıma da Anar Novruzov göz dikib, şantaj və hədə-qorxu ilə tələb edir və əlimizdən alır. SMS-ilə olan icazə əsasında 3 saata yaxın işləməyimizə məcbur edərək tam icarə haqqını tələb edir və əks təqdirdə müqaviləni birtərəfli qaydada ləğv edib, obyekti əlimizdən alacağı ilə təhdid etmişdir. Aylıq hər mağazadan 3.500 - 4000 manat icarə haqqı yığan Anarın qohumu Ərəstundan da hamımız çox ehtiyat edirik. Hər ay ümumilikdə təxminən ayda 300.000 (üç yüz min) manat icarə pulu nağd şəkildə yığılaraq Məmmədovlar ailəsinə verilir və bütün bu pulların vergidən yayındırılmasını ehtimal edir.

Bizimlə bağlanılmış sonuncu icarə müqaviləsinin 3.5-ci bəndinə zidd olaraq icarə haqları və digər ödənişlər icarəyə verənin bank hesabına köçürmə və ya nağd şəkildə deyil, əldən-ələ ödənilir. Bu azmış kimi, icarə haqqından əlavə, bizim hər birimizdən ticarət mərkəzində səliqə-sahmanın, sanitariya qaydalarının və s. işlərin görülməsi adı ilə əlavə aylıq 400 manat da pul alınır ki, bu da tam qeyri qanunidir.

Son zamanlar Möhtərəm Prezidentimiz cənab ilham Əliyevin bir çox çıxış və xalqa müraciətlərində dövlət və cəmiyyət əleyhinə çirkin və xain əməlləri həyata keçirmək istəyən 5-ci kolonun mövcud olması, onlara qarşı amansız və barışmaz mübarizənin aparılması xüsusilə qeyd edilir. 5-ci kolonun başında duran Azərbaycan Milli Elmlər Akademiyasının prezidenti Ramiz Mehdiyevin müavini olan Elton Məmmədovun 5-ci kolonun planlarının həyata keçirilməsində böyük miqdarda maliyyə yardımı etməsi barədə söhbətləri biz də eşidir, lakin buna inana bilmirdik. Lakin Ziya Məmmədovun R.Mehdiyevi müdafiə etməsi və Elton Məmmədovun isə hər hansı bir münasibət bildirmədən kölgəyə çəkilməsi faktı Məmmədovlar qardaşlarının həmin qruplaşmanın əsas və aparıcı fiqurlarının olmasını sübut edir. C.Cabbarlı və Füzuli meydanındakı yeraltı keçidlərdə olan 120 mağazadan hər ay yığılan təxmiən 300.000 (üç yüz) min manat pulun Məmmədovlar ailəsinə çatması, həmin ailənin də öz növbəsində həmin pulları 5-ci kolonun nəzərdə tutulmuş çirkin planlarının həyata keçirilməsi üçün sərf etməsi ehtimalı dövlət təhlükəsizlik və hüquq mühafizə orqanları tərəfindən dərindən və hərtərəfli araşdırılmalıdır.

Hal-hazırda həmin ticarət mərkəzinə qeyri-rəsmi rəhbərlik edən Elton Məmmədov üçün 3500-4000 min manatdan icarə haqqı yığıb vermək sahibkarları çətin və mümkünsüz vəziyyətə salmışdır. Belə ki, vergi, sosial müdafiə, elektrik, mühafizə və başqa kommunal xərcləri də üstünə gəldikdə 34 kv m. Bir mağazadan bu xərcləri ödəmək mümkün olmur. Onlar da bunu düşünülmüş qaydada edirlər ki, həmin xərcləri ödəyə bilmədiyimizdən 2 dəfə pul verib aldığımız mağazaları Məmmədovlar üçün qoyub gedək.

Göstərilən 10 il müddət ərzində hər dəfə də icarə müqavilələrinin vaxtının bitməsinə xeyli vaxt qalmasına baxmayaraq 5 dəfə müqavilələr dəyişdirilmişdir. Burada əsas 3 səbəb vardır.

1-ci icarə haqqlarının 800 manatdan 4.000 minə qaldıraraq öz qanunsuz gəlirini 5 dəfə artıra bilmişlər.

2-ci 2009-cu ildə 80 mağazanın hər birindən 50-60 min ABŞ dolları pul yığan o vaxtın millət vəkili Elton Məmmədov və Elnur Albullayevin cinayət izini itirməkdən ibarətdir.

3-cü Anar Novruzovun rəhbərliyi altında aparılan bu işlər, təhdidlər, bizlərdə qorxu və xof yaratmaqdan ibarət olmuşdur.

Vətən müharibəsindən əvvəl və müharibənin və sonrakı dövrdə və koronovirus pandemiyasının dörd rəqəmli anti-rekord bir həddə çatması iqtisadi göstəricilərinin aşağı düşməsi xüsusən ticarət biznesinin xeyli zəifləməsinə səbəb olmuşdur.

Anar Novruzov ölkədə gedən ağır iqtisadi vəziyyəti qətiyyən nzəərə almadan əvvəllər aldığı kimi icarə haqqlarını tələb edərək ala bilir. Hələ bu azmış kimi icarə müqavilələrinin müddətinin dekabr ayında başa çatan 15 nəfərə yaxın sahibkara bildiriş məktubu göndərərək icarə müqavilələrinə xitam verəcəyini bildirmişdir (birtərəli qaydada). Banklara kredit borcu olan sahibkarları bu hal dahada ağır vəziyyətə salmışdır.

I [illegible] ı!

Biz sahibkarlar dəfələrlə Azərbaycan Respublikası Baş Prokurorluğuna yazdığımız şikayət ərizələrinə baxılmamış qalır, yaxud baxılması üçün aidiyyatı olmayan qurumlara ünvanlanır. Bununla da məsələ ört basdır edilərək bağlanır. Bizə çatan bəzi məlumtlara görə bu işin başında Ziya və Elton Məmədovların A.R. Baş Prokurorluğunda müəyyən vəzifə sahibi olan qardaşlarımın oğlu Namiq Məmmədov durur. Nmaiq Məmmədov hər iki əmisindən Prokurorluq orqanlarına daxil olan şikayət ərizələrini zərərsizləşdirmək yaxud itirməklə məşğuldur.

Ziya, Elton, Anar Məmmədovların, onların qohumları olan Anar Novruzovun və Ərəstun adlı şəxsin C.Cabbarlı meydanındakı piyada keçidində yerləşən ticarət obyektlərinin hansı yolla özəlləşdirilməsi, bu məqsədlə bizdən aldıqları pulların mənimsənilməsi, ordan hər ay yığılan külli miqdarda pulların dövlətçilik əleyhinə çirkin məqsədlərə xərclənməsi, habelə icarə müqaviləsini bağladığımız tanımadığımız şəxs Məlikov Yavər Yaşar oğlunun qeyri-qanuni əməllərinin hərtərəfli araşdırılması, bu cinayətkar dəstənin Azərbaycan Respublikasının mövcud qanunvericiliyinə əsaəsn əsasən ən sərt şəkildə cəzalandırılması barədə müvafiq tədbir görəcəyinizi xahiş edirik.

Biz C. Cabbarlı meydanındakı piyada keçidində yerləşən ticarət mağazamızın bizim mülkiyyətimizə verilməsinə və həmin mağazaların özəlləşdirilməsi bəhanısi ilə Məmmədovların bizdən 2009-cu ildə hər birimizdən aldıqları 50-60 min ABŞ dolları məbləğində pulların bizə qaytarılmasına, yaxud mülkiyyət ilə (yəni mağaza) əvəzlənməsində və bu işə prokurorluq orqanlarında baxılması üçün Namiq Məmmədovun bu kimi işlərdən kənarlaşdırılması haqqında göstəriş verərək, köməklik etməyinizi Sizdən xahiş edirik.

**25.11.2020**

**Dərin inam və ehtiramla**

Böyükağa Həsənov (0515 211 06 10)

Əlibala Həsənov (055 218 47 44)

Asif Şahverdiyev (055 274 44 53)

Vasif Məhərrəmov (050 213 84 81)

Azər Nəsirov (050 388 43 85)

Cabbar Hacıyev (050 346 38 83)

Xudaverdi Həbibov (050 322 79 69)

Azad Beybudov (050 220 19 99)

Şükür Allahverdiyev (050 221 36 11)

İsrafil Əzizov (050 312 51 07)

Qəzənfər Şabanov (050 322 82 81)

Hidayət İsmiyev (055 665 93 01)